https://doi.org/10.59849/2410-5600.2025.2.54

UOT: 801.73

**Məsmə Mahmudova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç. 26*
*e-mail: mesme.mahmudova@mail.ru*

# XIX ƏSR ALİMİ ƏBDÜLQƏNİ NUXƏVİ KAMANDAR ŞƏRİFOVUN TƏDQİQATINDA

**Xülasə**

Məqalədə XIX əsr Azərbaycan maarifçilik tarixinin görkəmli simalarından biri olan Əbdülqəni Nuxəvi Xalisəqarızadənin elmi-mədəni irsi Kamandar Şərifovun tədqiqatları əsasında təhlil edilir. Araşdırmada göstərilir ki, Nuxəvi dövrün dini-mədrəsə təhsilinin yetkin nümayəndəsi olmaqla yanaşı, klassik Şərq filologiyası və fəlsəfəsi sahələrində geniş biliyə malik olmuşdur. K.Şərifovun araşdırması Nuxəvinin ərəb-fars dilçiliyi üzrə şərhlərini, İslam fəlsəfi fikrinin müxtəlif istiqamətlərinə dair mülahizələrini və maarifçilik ideyalarını ilk dəfə sistemli şəkildə elmi dövriyyəyə daxil etmişdir.

***Açar sözlər:*** *maarifçilik, Nuxəvi, ideya, klassik Şərq filologiyası*

## Giriş

*Əlyazma kitabı yaddaşlarda həkk olunmuş şifahi xalq ədəbiyyatı nümunələrinin yazıya köçürülməsi, elmin, ictimai fikrin və ədəbi yaradıcılığın verdiyi məhsullar, eləcə də başqa dillərdə edilən tərcümələr sayəsində ortaya gəlmişdir. Yüzilliklər boyu Şərq, o cümlədən Azərbaycan müdriklərinin, mütəfəkkirlərinin yaratmış olduqları mənəvi irs zəmanəmizədək ayrı-ayrı əlyazma kitabı şəklində gəlib çatmışdır. Bu əlyazma ktablarını araşdırmaq həm çətin, həm də şərəfli vəzifədir. Bu çətin və şərəfli işə öz həyatını sərf etmiş ziyalılardan biri də görkəmli əlyazmaşünas-alim Kamandar Şərifovdur. Əlyazmalar İnstitutunda işlədiyi 50 ildən çox bir müddət ərzində orta əsrlərdə yaşayıb-yaratmış Şərq klassiklərinin, eləcə də Azərbaycan alimlərinin və ədiblərinin türk, ərəb və fars dilində yazılmış irsi üzərində sanballı araşdırmalar aparmışdır.*

Kamandar müəllimin 1971-1980-ci illərdə əhalidə saxlanılan minlərlə əlyazma kitablarının, orta əsr yazılı abidələrinin respublikamızın müxtəlif bögələrindən toplanmasında böyük xidmətləri olmuşdur. Bu dövr ərzində topladığı əlyazma kitabları arasında XIX əsr alimi, pedaqoqu və kitabşünası Əbdülqəni Məhəmməd oğlu Nuxəvi Xalisəqarızadənin əlyazmaları xüsusi yer tutur. Əlyazma kitab mədəniyyətinin qorunub saxlanması, inkişafı və təbliğində əvəzsiz xidmətləri olan Nuxəvinin hazırda AMEA Füzuli adına Əlyazmalar İnstitutunda iki mindən çox əlyazması saxlanılır [1, s.17].

Ensiklopedik biliyə malik olan Əbdülqəni Nuxəvinin yaradıcılığı olduqca rəngarəng və çoxşaxəli olmuşdur. O, türkdilli və farsdilli Şərq ədəbiyyatının tədqiqatçısı olmasında ərəb dilini mükəmməl bilməsi vacib rol oynamışdır. Bu xüsusiyyət Ə.Nuxəviyə bu dildə yazılmış məntiq, fəlsəfə, dil, ədəbiyyat nəzəriyyəsi və başqa elm sahələrinə aid əsərlərdən səmərəli istifadə etməsinə və bu əsərləri Azərbaycanda yaymasına imkan vermişdir. Böyük alim gözünün nuru və iti qələmi, əqlinin, zəkasının hikməti, xalqına olan alovlu məhəbbətinin odu ilə yuxusuz gecələrinin və istirahətsiz gündüzlərinin hesabına yaratmış zəngin elmi irslə yanaşı, təşkil etdiyi böyük bir kitabxana ilə də özünə ölməz bir abidə qoyub getmişdir.

Əbdülqəni Nuxəvi elmi və pedaqoji fəaliyyəti ilə bərabər, kitabşünas kimi də böyük işlər görmüşdür. Onun həyatı kitab mədəniyyətimizin toplanması, qorunub saxlanması, inkişafı və

yayılması ilə bağlı olmuşdur. Alimin yaratmış olduğu zəngin kitabxana Azərbaycan klassikləri ilə yanaşı, Şərqin görkəmli mütəfəkkirlərinin əsərlərini əhatə edən böyük bir hikmət xəzinəsi olmuşdur. Kitabxananın əsasını isə Nuxəvinin ulu nənəsi Xalisə qarı qoymuşdur. Sonralar Xalisə qarının övladları tərəfindən kitabxana daha da zənginləşdirilmişdir. Əbdülqəni Nuxəvi isə onu böyük bir mənəvi sərvətə çevirmişdir. Həmin xəzinədən dövrümüzədək gəlib çatmış əlyazmalar mədəniyyət tariximizin tədqiqində və öyrənilməsində ən dəyərli mənbələrdəndir. Hələ gənc yaşlarından kitaba böyük həvəs göstərən Əbdülqəni Nuxəvi mədrəsələrdə dərsliklər ilə yanaşı, bir sıra əsərlərin üzünü köçürərək, öz kitabxanasına gətirməyə, sonralar isə kitabları ayrı-ayrı adamlardan pul ilə alıb toplamağa başlamışdır. Alim həm ali təhsil alarkən, həm də Şərq ölkələrində səfərdə olarkən Şəkiyə böyük miqdarda əlyazma və çap kitabları alıb gətirmişdir. Həmin kitablardan bizə gəlib çatanlarının titul vərəqlərində İstanbul, İsgəndəriyyə, Qahirə, Məkkə, Mədinə və başqa şəhərlərdən Əbdülqəni Nuxəvi tərəfindən alındığı qeyd edilmişdir. Həmçinin o, özündə iki və daha çox nüsxəsi olan əsərləri başqa kitab həvəskarları ilə özündə olmayan kitablara dəyişdirməklə də öz kitabxanasını zənginləşdirmişdir [2, s.5]. Eyni zamanda bir sıra maarifpərvər adamlar alimin yaratmış olduğu bu elm ocağına çoxlu kitablar hədiyyə vermişdir. Məsələn, Əbdülqəni Nuxəvi bir əlyazma toplusunda yazır ki, "müəllimlərin istifadə etməsi üçün bu kitabı mənə Hacı Əbdülhüseyn verdi". Alimin kitabxanasında bizə çatmış əlyazmaların titul vərəqlərində ara-sıra belə qeydlərə rast gəlirik. Bu da onu göstərir ki, Xalisəqarızadənin topladığı kitabları və yaratdığı kitabxana yalnız onun öz ailəsinə yox, geniş xalq kütləsinə xidmət etmiş, xalqın maariflənməsində ciddi rol oynamışdır. Vətənpərvər alim xalqın maariflənməsi naminə yazıb-yaratdığı əsərlərlə bərabər, öz məvacibi hesabına müxtəlif elm sahəsinə dair alıb topladığı kitabları da öz xalqı üçün əsirgəməmişdir. Alimin kitabxana dəftərindən məlum olur ki, o, hicri 1251-ci ildən (m.1835) etibarən ömrünün axırınadək hər il oxucuların istifadəsinə böyük miqdarda kitablar vermişdir. Xalqına göstərdiyi bu misilsiz xidmətlərə görə o, kütlə içərisində böyük nüfuza və hörmətə malik olmuşdur. Əbdülqəni Nuxəvi kitabxanasında topladığı əlyazmaların mühafizəsinə, sistemləşdirilməsinə və təbliğinə böyük əhəmiyyət verdiyi kimi, onların bərpasına da xüsusi diqqət yetirmişdir. O, əlyazmaların bərpa edilmə üsullarını hələ gənc yaşlarından öyrənmişdir. Onun h.1248-ci (m.1832-33) ildə 16 yaşında ikən bərpa etdiyi "Otuz iki fərz" (B-6818) adlı əlyazma toplusu göstərir ki, o, hələ məktəbdə oxuyarkən bu sahədə müəyyən təlim almışdır [3, s.65].

Əbdülqəni Nuxəvinin 160-170 il bundan öncə bərpa etdiyi yazılı abidələr indiyədək yaxşı vəziyyətdə qalıb. Bu da onu göstərir ki, o, keçmiş yüzilliklərdə kitabçılıq sahəsində uzun müddət təcrübədən keçirilmiş material və metodlardan istifadə etmişdir. Bununla da alim xalqımızın mədəniyyət tarixinin ayrı-ayrı mərhələlərinə işıq saçan yazılı abidələrin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması yolunda əvəzsiz işlər görmüşdür.

Nuxəvinin hazırladığı "Muxtəsər əl-Qüduri"nin B-6691/8316 şifrəli nüsxəsi paleoqrafik xüsusiyyətlərinə və keyfiyyətinə görə digər nüsxələrdən fərqlənir. Bu dəyərli əlyazmaya əsasən Əbdülqəni Nuxəvini ustad xəttat adlandırmaq olar. Bütün xətt növlərinə yaxından bələd olan katib bu abidəni çox dəqiq və nəfis şəkildə hazırlamışdır ki, bu da XIX əsr əlyazma kitab nümunəsi kimi qiymətlidir. Nuxəvinin əlyazma kolleksiyasında istər tarixinin qədimliyi və bədii tərtibatı ilə fərqlənən, istərsə də elmi cəhətdən çox qiymətli əlyazma kitablarının olması təsadüfi olmamışdır. Bu əlyazma abidələri orta yüzilliklər Şərq xalqlarının ictimai, iqtisadi və ədəbi fikir tarixinin öyrənilməsi baxımından mötəbər mənbələrdir. "Nuxəvinin dəftəri" kitabı Azərbaycanın tarixinin, ailə hüququnun, insanların mədəni səviyyəsinin, dünyagörüşünün öyrənilməsi baxımından çox dəyərli qaynaqlardandır. Həmin kitabı Əbdülqəni Əfəndi 1866-1879-cu illərdə Şəkinin baş qazisi olarkən tərtib edib. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu alim pedaqoq, kitabşünas, mətnşünas Ə. Nuxəvinin "Qazıxana dəftəri" kitabını nəşr etdirmişdir. "Qazıxana dəftəri" XIX yüzillikdə Nuxada ailə hüququnun, səhiyyənin tarixinin, yer adları və tanınmış şəxsiyyətlərlə bağlı müəyyən məlumatların öyrənilməsi və əldə edilməsi baxımından çox dəyərli qaynaqdır. "Qazıxana dəftəri"ndə Şəkinin istər məşhur şəxsiyyətlərinin, istərsə də sadə insanlarının nikah müqavilələri qeydə alınmışdır. Nikahla bağlı məlumatlar konkret olaraq bunlardır: evlənən oğlanın və ya kişinin, ailə quran qızın və ya qadının adları və soyadları, vəkillərin, şahidlərin, kəbin kəsənin adları, möhür

və tarix [4, s.9].

"Qazıxana dəftəri"ndə Şəkinin xanları, tanınmış şəxsiyyətləri və onların övladları ilə bağlı (Şəki xanları Hacı Çələbi xan, Məhəmmədhəsən xan, Səlim xan, Şəki bəylərbəyi Fətəli xan, Əlican Həsən xan Mirzə bəy Sultanovun oğlu, Şəkixanovlar, Əfəndiyevlər və Əfəndizadələr, İmamzadələr, Qaragözzadələr, Danyal Sultan, Şeyxəli bəy, Əlican bəy Nuxəvi, knyaz Əbdürrəhman, knyaz Abdulla, şeyxzadələr, Axundzadələr, knyaz Əbdürrəhim, Molla Cümənin övladları və başqaları) müəyyən məlumatlar da yer alıb. Məsələn, Xanlar ağa Cəfər ağa Şəkixanovun oğlunun Huri xanım Hüseyn ağa Şəkixanovun qızı ilə, ustad bərbər Məhərrəm bərbər Əbdürrəhman oğlunun Səkinə bəyim Molla Cümanın oğlu Manafin qızı ilə, Əlican Həsən xan Mirzə bəy Sultanovun oğlunun Səkinə bəyim Şəki bəylərbəyi Əlican Məhəmmədhəsən xanın qızı ilə, İbrahim bəy Şeyxəli bəy oğlunun Ballı xanım hacı Şəmsəddin bəyin övladı Mustafa bəyin qızı ilə evlənmələri qeyd olunmuşdur [4, s.12].

"Qazıxana dəftəri"nin Şəki bölgəsində səhiyyənin öyrənilməsi baxımından da əhəmiyyəti var. Belə ki, bu mənbədə XIX yüzilliyin ikinci yarısında Nuxada vəfat edənlərin vəfat tarixi, xəstəliyi və yaşı qeydə alınmışdır və qeydlərdən məlum olur ki, vəfat edənlərin böyük əksəriyyəti ağ ciyər xəstəliklərindən, o cümlədən plevrit, vərəm və sətəlcəmdən ölmüşdür. Bundan başqa ishal, yatalaq, qızdırma, çiçək və yel xəstəliklərindən ölənlərin sayının, doğuş zamanı ölmüş qadınların sayının da çox olduğu göstərilir. O cümlədən dəftərdə 1871-ci ildə Nuxada kütləvi xəstəliyin baş verməsi barədə də məlumat var. "Qazıxana dəftəri"ndə Nuxada yaşamış Mələkcahan adlı bir qadının 120 yaşında vəfat etdiyi də qeyd olunmuşdur.

"Qazıxana dəftəri"ndə Nuxada fəaliyyət göstərmiş Böyük Cümə məscidinin, Qışlaq cümə məscidinin, Qaragözzadə məscidinin, Hacı Tuti ağa məscidinin, eləcə də şəhərin Sabunçu, Dəmirçilər, Dabbağ, Qullar, Əfqan, Yuxarı Baş məhəllələrinin adları da göstərilib.

Əbdülqəni Nuxəvi eyni zamanda Azərbaycan ədəbiyyatı tarixində kamil bir şərqşünas, kitabşünas alim kimi də ciddi fəaliyyət göstərmişdir. 40 illik elmi axtarışlar nəticəsində Şərqin məşhur elm və mədəniyyət xadimlərinin əlyazmalarını, əsərlərini toplayaraq üzünü köçürüb, bəzilərini də müxtəlif mətnlər əsasında şərh etmişdir. Mütəxəssislərin fikrincə, Azərbaycan kitab mədəniyyətinin əlyazma şəklində inkişaf etməsində Əbdülqəni Nuxəvinin böyük rolu olub. Onun əsərlərinin böyük əksəriyyəti repressiya dövründə məhv edilsə də, bir hissəsi Əlyazmalar İnstitutunda qorunub saxlanılır. Görkəmli alimin yaradıcılığının tədqiqi Azərbaycanda kitabşünaslıq və pedaqogika tarixini, yazdığı və tərtib etdiyi dərsliklərin bu tariximizin inkişaf mərhələlərini öyrənmək baxımından da xüsusi əhəmiyyəti var.

Nuxəvinin Azərbaycan və Şərq mütəfəkkirlərinin əsərləri üzərində apardığı tekstoloji tədqiqat işi və həmin əsərlərə yazdığı mükəmməl elmi şərhlər onu göstərir ki, Əbdülqəni Nuxəvi mədəniyyət tariximizdə ədəbiyyatşünas alim kimi məhsuldar elmi fəaliyyət göstərmişdir. Onun yaradıcılığında maarifçilik, xalqın tərəqqisi ilə bağlı olan məsələlər mühüm yer tutur. Alim məhsuldar elmi fəaliyyəti ilə bərabər 36 ilə qədər Şəki məktəb və mədrəsələrində müəllimlik etmişdir. "Biz nəzəriyyə və təcrübəyə, elmlərin və maarifin yayılmasına nail oluruq" deyən alim elmlərin xalq arasında yayılmasında, onların maariflənməsində böyük rol oynamış və bu amal uğrunda uzun müddət gərgin elmi-pedaqoji fəaliyyət göstərmişdir. Maarifçi alim XIX əsrdə Azərbaycanda hökm sürən savadsızlığın aradan qaldırılmasını, tərəqqinin və xalqının işıqlı gələcəyini elmdə görmüş, bu yolda bütün bilik və bacarığını əsirgəməmişdur. O elmin gücünü və onun insanlar üçün nə dərəcədə vacib və əhəmiyyətli olduğunu aşağıdakı kimi qiymətləndirir:

*Elmi insanlar üçün nur gördüm,*
*Buludsuz parıldayan günəş işığı kimi.*
*Günəş nuru hər gün batır.*
*Elmin nuru daim yanır [2, s.48].*

Bu nuru xalqa maarifçi ədib, alim və müəllimlər gətirə bilərdi. Xalisəqarızadə məhz belə alim və müəllimlərdən olmuşdur.

Əbdülqəni Nuxəvi pedaqoji fəaliyyətə h.1260 (m.1844)-cü ildə Əlican bəy Nuxəvinin xüsusi

mədrəsəsində başlamışdır. O, özünün məhsuldar elmi-pedaqoji fəaliyyəti sayəsində bu mədrəsənin elmi səviyyəsini ildən-ilə yüksəldərək, dərin bilik verən elm ocağına çevirmişdir. Tələbələr burada istər ictimai, istərsə də təbiət elmlərindən mükəmməl və hərtərəfli biliyə yiyələnirdilər. Buna görə də həmin mədrəsə o dövrdə Şəkidə və ətraf əyalətlərdə fəaliyyət göstərən mədrəsələrdən öz yüksək elmi səviyyəsi və mütərəqqi təlim üsulları ilə fərqlənirdi. Alim buna asanlıqla nail olmamış, bu yolda bir çox çətinliklərə və maneələrə rast gəlmişdir. Onların ən başlıcası dərs vəsaitlərinin hazırlanması olmuşdur. Həmin dövrlərdə məktəb və mədrəsələrdə istifadə olunan xüsusi dərsliklərin olmadığına görə Əbdülqəni Nuxəvi pedaqoji fəaliyyətə başladığı ilk illərdən etibarən gecəli-gündüzlü gərgin elmi işə başlamış, böyük zəhmət sayəsində bir sıra dərs vəsaitləri tərtib etmişdir. Bu dərs vəsaitləri ayrı-ayrı əlyazma toplu və kitabları şəklində təşəkkül tapmışdır. Əbdülqəni Nuxəvinin dərs vəsaitlərindən görünür ki, bu mədrəsədə dilçilik, ədəbiyyatşünaslıq, tarix, fəlsəfə, məntiq, riyaziyyat, həndəsə, astronomiya və s. kimi dünyəvi elmlər mükəmməl surətdə tədris olunmuşdur.

Nuxəvi uzun illər əmək sərf edərək tərtib etdiyi bədii və elmi əsərləri, yazdığı şərhlər və kitabları təlim-tərbiyə işində geniş istifadə etmişdir. O, üzərində tədqiqat apardığı hər hansı bir əsərin hər şeydən qabaq tədris üçün əhəmiyyətini nəzərdə tutmuşdur. Hətta bəzi hallarda əsər üzərində tədqiqat işi aparmaqla bərabər həmin əsəri tədris etmişdir. Bu da şübhəsiz ki, tədrisdə istifadə etmək üçün dərs vəsaitinin olmamasından irəli gəlmişdir.

Əbdülqəni Nuxəvinin fars dilində tərtib etdiyi ən böyük və mükəmməl dərsliyi "Sədo həft rəng" ("Yüz yeddi rəng") adlı əsəridir [2, s.57]. Alim bu dərsliyin tərtibinə müəllimlik fəaliyətinin ilk illərindən başlamış, h.1269 (m.1852-53)-cu ildə başa çatmışdır. O, bu əsərin tərtibində gecəli-gündüzlü 8 il böyük səy və əmək sərf etmişdir. Bu əsərə dilçiliyə, ədəbiyyatşünaslığa, məntiqə, fəlsəfəyə, fiqhə, riyaziyyata, həndəsəyə, astronomiyaya və s. elm sahələrinə dair 107 əsərin mətni daxil edilmişdir. Alim bu cildə daxil etdiyi bir sıra əsərlərin mətnləri üzərində mükəmməl məntşünaslıq işi apararaq, onlara müfəssəl şərhlər yazmışdır.

Kamandar Şərifovun araşdırmaları Nuxəvinin yalnız öz dövründə deyil, həm də sonrakı mərhələlərdə elmi fikrin inkişafına təsir göstərən bir alim olduğunu təsdiqləyir. Tədqiqatlar göstərir ki, o, Şərq klassik ənənələrini dərindən mənimsəməklə yanaşı, yeni maarifçi ideyalara da açıq olmuş, cəmiyyətin intellektual tərəqqisi üçün çalışan müdrik bir mütəfəkkir kimi yadda qalmışdır [5, s.177].

Bu səbəbdən, Əbdülqəni Nuxəvinin irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması Azərbaycan elm tarixinin mühüm istiqamətlərindən biridir. Onun fəaliyyəti XIX əsr Azərbaycan ziyalılığının simasında duran intellektual oyanışın bariz nümunəsidir və bu gün də elmi düşüncənin inkişafı üçün qiymətli bir mənbə olaraq qalır.

## Nəticə

*Kamandar Şərifovun araşdırmaları göstərir ki, Əbdülqəni Nuxəvi təkcə dövrünün dini elmlər xadimi deyil, həm də maarifçilik hərəkatına təsir edən mütəfəkkirlərdən biri olmuşdur. Onun irsi Azərbaycan elmi, ədəbiyyatı və fəlsəfi fikri üçün dəyərli mənbədir. K.Şərifovun tədqiqatı bu irsin elmi şəkildə qorunması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.*

## Ədəbiyyat siyahısı:

1. Şərifli K. Azərbaycan əlyazma kitabı və kitabxanası. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, Nurlan, 2009.
2. Şərifli K. Əsərləri. I, "Elm və Təhsil", AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2019.
3. Şərifli K. Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə kitabxanasının kataloqu. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, II c. Bakı, "Elm və Təhsil", 2023.
4. Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə. "Qazıxana dəftəri". AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, Nurlan, 2009.
5. Əbilova Z. "Görkəmli mətnşünas alim və tərcüməçi Kamandar Şərifov - 85". AMEA

Əlyazmalar İnstitutu. "Əlyazmalar yanmır" (elmi məqalələr toplusu), №1 (20), 2025.

**Masma Mahmudova**

**XIX century scholar Abdulgani Nukhavi in Kamandar Sharifov's investigation**

***Summary***

The article deals with scientific-cultural heritage of one of the outstanding persons in the XIX century Azerbaijani enlightenment history Abdulgani Nukhavi Khalisagarizadeh on base of Kamandar Sharifov's investigation. Our investigation shows that Nukhavi was not only outstanding representative of religious-madrasah education of his time but also very educated in classic Oriental philology, philosophy and morality. K.Sharifov's investigation for the first time presented to the scientific world Nukhavi's commentaries on Arabic-Persian linguistics, thoughts and enlightenment ideas on various thought directions of Islamic philosophic thought.

***Keywords:*** *enlightenment, Nukhavi, idea, classic Oriental philology*

*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent* ***Rübabə Şirinova***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*